***TƏRBİYƏ TEXNOLOGİYALARI***
***ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ***
***UPBRİNGİNG TECHNOLOGIES***

*UOT 37.0*

# ŞAGİRDLƏRİ FƏAL HƏYATA HAZIRLAMAQDA İNTİZAM TƏRBİYƏSİNİN ROLU

**Şəms Vüqar qızı Fətəliyeva**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0002-0287-8426
**E-mail:** sems.feteliyev1999@gmail.com

***Açar sözlər:*** *intizam, intizam tərbiyəsi, şagirdlərin intizam tərbiyəsi, şagird özünüidarəsi, qiymətləndirmə*

***Ключевые слова:*** *дисциплина, дисциплинарное образование, дисциплинарное воспитание студентов, студенческое самоуправление, оченка*

***Key words:*** *discipline, discipline education, discipline of education, student self-government, evaluation*

İntizam nə deməkdir? Tarixən onun hansı növ və formaları vardır, digər intizamlardan hansı xüsusiyyətlərinə görə seçilir? İntizam dinclik və bolluğa görə hər kəsin təriflənməsidir və ya müvafiq əsasnamə, proqram kimi əsas sənədlərdə əks olunaraq aydın edilmiş qaydalardan kollektiv üzvlərinin asılılığıdır. Bu qaydalar insanın kollektivlə, ictimai işlə, cəmiyyətlə, əmək eyni zamanda dövlətlə bağlılığıdır. Tarixən meydana gələn intizam formaları mövzusuna gəldikdə demək olar ki, intizam cəmiyyətin ictimai münasibətlə bağlı olduğuna görə cəmiyyətin dəyişməsi intizamın da dəyişməsidir.

Uşaq tərbiyə kollektivi cəmiyyətin əsas komponenti olub, gənclərin təkmilləşməsində, həmçinin vətəndaş kimi yetişməsində böyük əhəmiyyət kəsb edir. Kollektiv şagirdlərdə liderlik, icraedicilik, işgüzarlıq, yaradıcılıq kimi cəhdləri əmələ gətirir. Kollektivdə icraedilən təlim, ictimai-faydalı, mədəni-kütləvi, idman, eyni zamanda başqa tədbirlər kollektiv tərkibinin müfəssəl formada təkmilləşən şəxsiyyət kimi yetişməsinə çalışmaqla yanaşı onun fərdi-iradi, şəxsi-əxlaqi xüsusiyyətləri cəmiyyətin əlverişli şəraitdə yaradılmasında müfəssəldir. Qeyd olunmuş vəzifələrin həyata keçirilməsində şagird özünüidarəsinin rolu əvəzsizdir. Şagird özünüidarəsi yəni şagird komitəsi 60-70-ci illərdə tam fəaliyyət göstərməyib. O cümlədən məktəblərimizin əksəriyyətində şagird komitəsi var. Hal-hazırda bu məsələyə daha çox əhəmiyyət verilsə də, bəzi məktəblərdə şagird özünüidarəsininin yaradılmasında qeyri-ciddilik, elmsizlik özünü büruzə verir. Uşaq kollektivinin, onun həyatının elmi-pedaqoji, metodik səbəblərdən yaradılması yerinə kor-koranə, perspektivsiz təkcə təlim-tədris quruluşuna əsasən kollektiv "yaratmaqdan" inkişaf etməyən məktəblər yenə mövcuddur. Şagird özünüidarəsi məktəbin inkişafı nəticəsində təzə vəzifələrin həlli ilə məşğul olmuş, mükəmməlləşmişdir. V.M. Korotov. 1960-cı illərdən şagird özünüidarəsi üzrə tədqiqat aparmış, tədqiqatdan əldə etdiyi nəticələri bir çox monoqrafiyada əks etdirmişdir. O kollektivdə özünütəşkilin metodlarından bəhs edərkən bildirib ki, məktəblilərin özünüidarəsi elə vasitədir ki, bununla pedaqoqların tələbləri kollektivin

tələblərinə çevrilir. V.M. Korotovun fikrincə, özünüidarə kollektivin təşkilinin əsas metodlarından biridir. 1978-ci ildə "Ümumtəhsil məktəbində şagird komitələri haqqında Əsasnamə" öz təsdiqini tapmışdır. Həmin əsasnamədə şagird komitəsinin təşkili, fəaliyyət sahələri, həyata keçirdiyi tərbiyəvi məqsəd və vəzifə aydın göstərilmişdir. Şagird özünüidarəsinin-şagird komitəsinin faydalı şəkildə işlədiyi məktəblərdə güclü kollektivin meydana gəlməsi, şagirdlərin hər birində aktivlik, ciddilik, tədbirlilik kimi müsbət xüsusiyyətlərin tərbiyə olunması aparılan araşdırmalar və praktik iş sayəsində sübut edilmişdir. Şagird komitəsinin birinci keçirilmiş iclasında komitənin sədri və müavini, katibi seçilir. Sədr komsomol komitəsinin tərkibindən seçilir. Məktəb şagird komitəsinin 8 komissiyası aktivdir: təlim komissiyası, intizam və qayda-qanun komissiyası, təsərrüfat-əmək komissiyası, kitabxana komissiyası, estetika komissiyası, idman komissiyası, mədəni-kütləvi işlər komissiyası, eyni zamanda şagird komitəsinin redaksiya heyəti. Təcrübələrdən aydın olur ki, yalnız özünüidarə qüvvəsini tətbiq etməklə məktəbdə nümunəvi kollektiv yaratmaq mümkündür. Bu kollektivin köməyi ilə yerinə yetirilən tədbirlər-qiyabi səyahətlər, qarşılaşmalar, diskussiyalar və s. şagirdlərin vətəndaş kimi yetişməsində rolu əvəzsizdir. Şagird özünüidarəsi məktəblilərin hər birinin ictimai işində xüsusi cavabdehliyi gücləndirir, yaxın kollektivin əldə etdiyi nailiyyətlərə fərəhlənmək hissini yüksəldir. Beləliklə uşaqlar üçün kollektivin mənfəəti xüsusi mənfəətdən daha çox önəmlidir. Kollektiv meylinin hamısına düzgün qayğı göstərməklə şagirdlərin kollektivin ayrı üzvləri ilə münasibətində qarşıya hədəf qoymaq, özünün və digərlərinin üzərində məsuliyyət hiss etmək kimi xüsusiyyətlər yetişir. Şagird özünüidarəsi gənclərdə A.S. Makarenkonun fikrinə əsaslanmaqla bildirmək olar ki, həyatı və mübarizə şəraitindən asılı olaraq nəzakətli, sərt, xeyirxah və amansız olmaq keyfiyyəti formalaşdırılmalıdır: onlar fəal təşkilatçı, inadkar və möhkəm olmalı, özlərini idarə etməyi və başqalarına təsir göstərməyi bacarmalıdır; kollektiv gənci cəzalandırarsa, o, kollektivə və verilmiş cəzaya hörmət etməlidir. Özünüidarədə göstərilən birlik həm şagirdlərin təşəbbüskarlığını, həm də kollektivin yeni məlumatlarla təmin olunması qabiliyyətini təkmilləşdirir.

Təşəbbüskarlıq-bütünlükdə məktəbin həyatı və işlərini yüngülləşdirmək sahəsində kollektivin hər bir üzvünün şəxsi xidmətidir. Bu iş kollektivin əbədi olaraq fəal həyat mövqeyi əldə edilməsi ilə aşkar olunur. Şagird özünüidarəsi dəqiq inkişaf dövründə yaranır, həqiqi tərbiyə kollektivinə, təşkilati orqana çevrilir. Özünüidarənin tərəqqisi kollektiv orqanlarının yaradılması ilə bağlıdır. Bunların hər biri-şagird kollektivi, həm növbətçi sinif, sanitar komissiyası, həm də başqa orqan kollektivdəki aktivliyin dəqiq növünə ümumi liderlik funksiyasını icra edir. N.K. Krupskaya "Məktəb özünüidarəsi və əməyin təşkili" məqaləsində qeyd edir ki, məktəb özünüidarəsinin ən mühüm funksiyalarından biri uşaqlarda təşkilatçılıq bacarığını inkişaf etdirməkdən ibarətdir. Özünüidarə kollektivdə pedaqoji səmtdən məqsədyönlü asılılıq və tabeçilik əlaqələrini yaratmaqla onu tamamlayır. Həmin istiqamət özünüidarə işində vacibliyin həqiqiliyini əks etdirir. A.S. Makarenko diqqətini bu səmtə istiqamətləndirməklə bildirmişdir: "Kollektivin təşkilatı olan yerdə kollektiv orqanları da olmalıdır, demək, yoldaşın yoldaşa münasibəti məsələsi dostluq, məhəbbət, qonşuluq məsələsi deyil, məsul bir asılılıq məsələsidir. Uşaq kollektivində bərabər durmaq deyil, tabelilik əlaqəsi yaratmaq böyük məharət tələb edir, həm də çətinlik törədir. Bizim pedaqoqların hər şeydən artıq qorxduqları cəhət də budur. Bir yoldaş digər bir yoldaşa tabe olmalıdır, lakin o yalnız sadəcə olaraq tabe olmaq deyil, tabe olmağı bacarmalıdır. Bir yoldaş digər bir yoldaşa əmr etməyi, yəni ona tapşırmağı və ondan müəyyən vəzifə və məsuliyyət tələb etməyi də bacarmalıdır". Qarşılıqlı asılılıq və tabeçilik əlaqəsinin

kollektivi tam güclü və bütöv etdiyi araşdırmalardan aydın olmuşdur. Kollektivin tərəqqisinin ikinci mərhələsində kollektivin yaradılmasında daxili maraq zəruri əhəmiyyət kəsb edir. Uşaq kollektivindəki özünüidarənin bu cür daxili yaradıcı gücü vardır. Uşaq özünüidarəsinin inkişafı məktəb fəaliyyətində sərfəli olmaqla bərabər tərbiyə prosesinin əbədi mükəmməlliyinə görə münasib vəziyyət qurur. Məktəblərdə uşaq özünüidarəsi problemi ilə maraqlanan tədqiqatçılar bunlardır: S.N.Belousov, V.M. Korotov, V.N.Nikolayev, N.İ. İzosimov, Y.M. Knoxinov, Y.P. Sokolnikov, P.T. Frolov və s. Onlar uşaq özünüidarəsindəki yüksəlişin zəruri səbəbləri, konkret tərəfləri və ənənələri barəsində məlumat vermişlər. Bu haqda dəqiq mülahizə verilmişdir: “Kollektivlik və həqiqi demokratiya məktəbimizdə bütün özünüidarə sistemini təyin edir”. Özünüidarə orqanlarının qurulmasının zəruri səbəbi uşaq kollektivi həyatının mahiyyəti, eyni zamanda kollektivin bu və başqa iş növünün tərəqqisi ilə bağlıdır. Şagird özünüidarəsinin başqa üsullarından biri kimi qısa müddət ərzində bölünmüş müvəkkillərə müstəqil tapşırıqların yönləndirilməsini qeyd etmək olar. A.S. Makarenkonun fikrincə, ayrı-ayrı tapşırıqlar sistemi həqiqi təşkilatçılar hazırlanması, o cümlədən daimi fəallar üçün yaxşı məktəb ola bilər. Şagird özünüidarəsinin tərəqqisi onu düzgün yönləndirməkdən asılıdır.

Qiymətləndirmə pedaqoji prosesdə xüsusi yer tutan və həmişə mübahisə doğuran məsələlərdən olmuşdur. Şagirdlərin bilik, bacarıq və vərdişlərinə diqqət yetirmək, araşdırmaq eyni zamanda qiymətləndirmək barədə çoxlu qeydlər edilmiş, rəy bildirilmiş, həmçinin yoxlama işləri aparılmışdır. Ancaq şagird davranışlarının qiymətləndirməsi ilə bağlı dəqiq araşdırmalar aparılmamışdır. Bunun əsası şagird təhsilinin taleyinin adi halda onun təlim nailiyyətinin meyarıdır. Son zamanlar şagird davranışının qiymətləndirilməsi həyata keçirilir. Bu isə insanların hər birinin, hətta məktəblilərin ətraf aləmlə, onun hərtərəfli fəaliyyəti, əlaqə inkişafı ilə bağlıdır. Davranış bu cür əlaqələri aşkar edir. Hər insanın libası, səliqə-sahmanı, düzgünlüyü, özündən böyük və kiçiklərlə əlaqəsi, təşəbbüskarlığı, ictimai fəaliyyəti, zərifliyi və s. onun davranışıdır. Böyüyən gənc nəslin güclü davranışa sahib olmaqla, cəmiyyətə faydası hərtərəfli olacaq. Davranışa görə qiymətləndirmə şagirdin mövcud qaydalara əməletmə dərəcəsini müəyyənləşdirmək deməkdir. Bütün qiymətləndirmələr, habelə davranışa görə qiymətləndirmə güclü tərbiyəvi xüsusiyyətləri ilə seçilir. Şagirdə verilən qiymətləndirmə ilə o, nə cür insan olduğunu anlamağa, davranışını analiz etməyə, davranışındakı mənfi cəhətləri yox etməyə səy göstərir. Şagirdin davranışa görə qiymətləndirilməsi tərbiyəçilərin, müəllimlərin zəhməti ilə bağlı olmaqla yanaşı onu büruzə verir. Qiymətləndirmə sosial, mədəni-mənəvi səmtdən səciyyəvidir. Qiymətləndirməyə heç kim istənilən cür həyata keçirə bilməz. Qiymətləndirmə dövlət mahiyyəti kəsb etməklə müəyyən olunmuş təlimat üzrə icra edilir. 1985-1986-cı illərin başlandığı vaxtdan etibarən respublika Maarif Nazirliyinin əmri əsasında 1985-ci ilin avqustunda öz əksini tapmış yeni qaydalar hər zaman qüvvədədir. “Ümumtəhsil məktəbləri şagirdlərinin davranışının və təlimə, ictimai-faydalı əməyə səyinin qiymətləndirilməsinə dair təlimat” ilə şagirdlərin davranış, təlim, əməyinə təhsil, iş, ictimai intizamın davamlılığına, birgəlik, işgüzarlıq və sərbəst çalışma hissinin artırılmasına olunan tələbi gücləndirmək niyyəti vasitəsilə şagirdlərin davranışına, təlimə, həmçinin ictimai-faydalı əməyə çalışmasında qiymətləndirmənin yeni qaydaları həyata keçirilir. Məktəb direktorları, onların müavinləri, sinif rəhbərləri yeni qaydaların mahiyyətini dərk etməklə ciddi formada öyrənməli, onun həyata keçirilmə üsullarını tamamilə yerinə yetirməlidir. Qiymətləndirmə düzgün, obyektiv, ədalətli aparılmalıdır. Əgər belə olmazsa qiymətlərin

tərbiyəedici mənası olmaz. Əks halda şagirdlərin davranışında hər zaman bəyənilməyən xüsusiyyətlərlə rastlaşmalı olarıq. Təlimata əsaslanmaqla şagirdləri 2 qrupa ayırmaq olar:

1. Yalnız davranışa görə;
2. Təlimə, ictimai-faydalı əməyə səyinə görə.

Davranışı qiymətləndirməyin zəruri dəyəri kimi şagirdlərə tətbiq edilən Qaydaları təlimatda göstərmək olar. Bu Qaydalarla şagirdlərlə bərabər müəllimlər, sinif rəhbərləri bilməlidir. Son Qaydalar keçən ilin avqustunda təsdiq edilmişdir. Qaydalar 10 maddə ilə verilmişdir. Həmin qaydalar 3 mərhələyə ayrılır: I-IV, V-IX, X-XI sinif şagirdlərinə görə münasib tələblər irəli sürülür. Qaydaları həyata keçirmək şablon məna olmamalıdır. Şagirdlərin şüurlu davranışına daha çox əhəmiyyət daşımalıdır. Qaydaları əzbərləməkdən üstün olan ona əməl etməkdir. “Əsas məsələ uşaqların davranışlarının Qaydalara müvafiq gəlməsidir. Buna görə də birinci növbədə “yaxşı nədir, pis nədir” uşağa izah etmək, uşaqda yaxşı və pis hərəkətlərə şüurlu münasibət yaratmaq lazımdır... Uşaqlarda daha artıq mədəni vərdişlər qazanılması üçün onları düzgün davranış qaydaları əsasında təmrin etdirmək lazımdır”. Əfsus ki, məktəblərdə qaydalarda eyni səviyyədə verilmiş tələblərə deyil, nəzərə alınmış tələblər-şagirdin təhsili, səyi, ictimai işlərdə iştirakı, bədən tərbiyəsi və idmanla məşğul olması, böyüklərə hörmət və ehtiram göstərməsi əmək işlərində iştirakı ilə bağlıdır. Şagird davranışının formalaşdırılması və qiymətləndirilməsi zamanı şablon göstərişlərə əməl edilməməli, pedaqoji qabiliyyət, habelə ustalıqla lazımi qaydada həyata keçirmək lazımdır. Buna uyğun misallar da gətirmək olar. İndi şagird davranışı 4 balla qiymətləndirilir: “Nümunəvi”, “yaxşı”, “kafi”, “qeyri-kafi”. Təcrübə göstərir ki, məktəblərin bəzilərində qiymətləndirmə apararkən qüsurlara yol verilir. Məsələn, sinifdəki bütün şagirdlərə bəzi məktəblərdə ucdantutma “kafi”, bəzilərində isə “nümunəvi” qiymət yazılır. Hər iki vəziyyət düzgün deyil. Təlimatı diqqətlə oxuyub, öyrənmək lazımdır. Hər bir şagirdə fərdi yanaşılmalı, hər kəsin davranışı şagirdlər üçün qaydalara əməl etmək səviyyəsinə görə dəqiq qiymətləndirilməlidir. Təlimatda göstərilir ki, “nümunəvi” qiymət məhz o şagirdə verilir ki, onun davranışı başqaları üçün nümunəvi olsun. “Nümunəvi” qiymət öz vəzifəsinə daha şüurlu, daha məsuliyyətlə yanaşan, şagirdlər üçün Qaydaları nümunəvi və hərtərəfli yerinə yetirən şagirdlərə verilir. “Kafi” qiymət isə şagirdlər üçün Qaydaları məktəb və ailənin daimi nəzarəti ilə yerinə yetirən məktəblilərə verilir. “Kafi” qiymət bildirir ki, şagirdin müəllim və valideynlərin, şagird kollektivi və ictimaiyyətin güclü diqqətinə ehtiyacı vardır. Bu o demək deyil ki, həmin şagird qüsurludur. Sadəcə olaraq onunla diqqətlə məşğul olmaq lazımdır. “Yaxşı” qiymət isə “kafi” ilə “nümunəvi” arasında dayanan səviyyəsini əks etdirir. Ona görə də, təbii ki, şagirdlərin böyük əksəriyyəti bu qiymətin tələblərinə cavab verə bilər. “Yaxşı” qiymət o şagirdə verilə bilər ki, qaydaları, əsasən, yerinə yetirir, davranış mədəniyyəti ilə kollektivdə yaxşı tanınır. “Qeyri-kafi” qiymət hər hansı bir şagirdin davranışı açıq-aşkar məktəbin əxlaq normalarına və ictimai qaydalara zidd olanda yazılır. Deməli, şagirdlərə davranış qiyməti verilərkən hər kəsin öz keyfiyyəti nəzərə alınmalı, 4 balın hər birindən istifadə edilməlidir. Müəllim şagird davranışının qiymətləndirilməsinə verilən tələblərə əməl etməlidir. Həmin tələblər aşağıdakılardır:

1. Kollektivdə hər bir şagirdə fərdi yanaşılmalı, onun davranışı yalnız hərəkətlərinə görə qiymətləndirilməlidir;
2. Qiymətləndirmə rüblük və illik aparılmalı, verilən davranış qiyməti şagirdə bildirilməli və izah edilməlidir;

3. Şagirdin davranış qiyməti hər hansı bir mülahizəyə görə yox, yalnız təlimatda müəyyənləşdirilmiş meyarla-şagirdlər üçün Qaydaların yerinə yetirilməsi səviyyəsinə görə verilməsidir;

4. Qiymətləndirmə düzgün, obyektiv və ədalətli olmalıdır;

5. Şagirdin davranışına verilmiş qiymətlər müvafiq sənədlərdə əks etdirilməli və dövlət əhəmiyyətli məsələ hesab edilməlidir.

Qiymətləndirmə yoxlamaya əsasən aparılır. Burada yoxlama üsullarından istifadə olunur və bunlardır:

1. Müşahidə. Sinif rəhbəri müşahidə dəftəri və orada hər bir şagirdin davranışına aid qeydlər aparmaq üçün xüsusi yer ayırır. Müşahidə şagirdlərin yaş səviyyəsinə və fərdi-iradi keyfiyyətlərinə görə nəzərdə tutulur;

2. Şagirdlər üçün Qaydaların maddə-maddə izahının soruşulması;

3. Şagirdə icra üçün tapşırılmış ictimai işin, tədbirin, hərəkətin icra keyfiyyətinin və nəticəsinin yoxlanması;

4. Şagirdin, ümumiyyətlə, davranış mədəniyyətinin fəallığının nəzərə alınması;

5. Şagirdin davranışı ilə əlaqədar olaraq valideynlərinin, müəllimlərin, pioner və komsomol təşkilatlarının, şagird komitəsinin, şagirdin əlaqə saxladığı digər müəssisə nümayəndəsinin rəyinin öyrənilməsi və s.

Hər bir sinif rəhbəri valideynlərlə, ictimaiyyətlə münasibəti məqsədli olmaqla, cəhdləri vahid məqsədlə birləşdirməklə işi müvəffəqiyyətlə həyata keçirmək olar. Şagird davranışının qiymətləndirilməsində tam obyektivliyin təmin olunmasına eyni zamanda şagirdin bütöv inkişafındakı köməyə çalışmalıdır.

Tərbiyə metodları müəyyən tərbiyə vəzifələrini yerinə yetirmək üçün müəllim və tərbiyəçilərin, kollektivin qarşılıqlı fəaliyyət prosesində istifadə etdiyi yollar toplusudur. “Metod” yunan sözü olub, yol, üsul, vasitə deməkdir. Tərbiyə metodlarının psixoloji və fizioloji əsasları mövcuddur. Tərbiyə metodunun psixoloji əsaslarında şüur böyük əhəmiyyətə malikdir. Şagirdlər yalnız şüurun köməyilə bilik və təcrübə qazanır, zahiri aləmini insanlarla əlaqəsinin məzmununu anlayırlar. Tərbiyə metodlarının özünəməxsus tarixçəsi vardır. Tərbiyə metodları məsələsində N.İ. Boldırevin, V.Y. Qmurmanın, E.İ. Monozsonun, M.Ə. Muradxanovun mühüm rolu vardır. Tərbiyə metodları aşağıdakı sistemlə verilib:

1. İnandırma metodu və onun vasitələri. Tərbiyə işini şagirdlərə aşılamaqda inandırmaq özünəməxsusluğu ilə seçilir. İnandırma metoduna siyasi məlumat, söhbət və mühazirələr, məruzələr, etik söhbətlər, nümunə, disputlar, kinofilmlərin və bədii əsərlərin müzakirəsi və s. aiddir.

2. Alışdırma metodu. Şəxsiyyət ilk öncə cürbəcür iş sahəsində təkmilləşir və yaranır. Dahi pedaqoq A.S. Makarenko özünün çoxillik və zəngin təcrübəsini ümumiləşdirərək bu nəticəyə gəlmişdi ki, yalnız kollektiv. Əməkdə iştirak etmək sayəsində insan hər bir zəhmətkeşi öz doğma və yaxın adamı kimi sevir, onunla dost olur. Alışdırma metoduna rejim, ictimai-faydalı əmək, idman, oyun, çalışmalar, təmrin və tapşırıqlar aiddir. Görkəmli pedaqoq V.A. Suxomlinski uşağın oyun fəaliyyətini belə xarakterizə edir: oyunda uşaqların qarşısında dünya açılır, şəxsiyyətin yaradıcı qabiliyyətləri üzə çıxır. Oyunsuz dolğun, məzmunlu əqli inkişafı yoxdur və ola da bilməz. Oyun çox böyük işıqlı pəncərədir. Həmin pəncərədən uşağın mənəvi aləminə ətraf aləm haqqında təsəvvürlərin, anlayışların həyatverici axını daxil olur. Oyun hər şeylə maraqlanmaq, biliyə səy göstərmək, odunu yandıran qığılcımdır.

3. Rəğbətləndirmə və cəza metodları. Dahi rus pedaqoqu K.D. Uşinski deyirdi ki, rəğbətləndirmə və cəza artıq, xəstəliyin qabağını alan və onu düzgün normal həyat və fəaliyyətlə müalicə edən zərərsiz səhiyyə vasitələri deyil, bəlkə, orqanizmdən xəstəliyi başqa xəstəlik vasitəsilə sıxışdırıb çıxardan dərmandır. V.A. Suxomlinski bütün dünyaya məktəbin humanist mahiyyətini praktik olaraq sübut etmişdir. Mərhum professor M.Ə. Muradxanov rəğbətləndirmə və cəzalandırma ilə bağlı fikir irəli sürmüşdür: "Uşaq əxlaqlı hərəkət edərkən onu tərifləyirlər; o, bundan həzz alır. Bu zaman tariflənməklə yaxşı hərəkət arasında assosiativ əlaqə yaranır. Uşaq həmin həzz hissini bir də yaşamaq üçün yenə əxlaqlı hərəkət edir, eləcə də pis hərəkət cəza ilə nəticələnir. Uşaq isə cəzadan kədərlənir, iztirab çəkir. Bu iztirab hissi ilə pis hərəkət arasında assosiativ əlaqə yaranır. Uşaq bir daha həmin iztirab hissini yaşamamaq üçün o hərəkətdən daşınır. Yaxşı hərəkət üçün rəğbətləndirmə və pis hərəkətlər üçün cəzalandırmanın əxlaqa təsirinin mexanizmi belədir".

**Problemin aktuallığı.** İndiki dövrdə intizam tərbiyəsinin tətbiqində şagird komitəsi, şagird davranışının qiymətləndirilməsi, tərbiyə metodları, intizamlılıq, şüurlu intizam tərbiyəsi özünəməxsusluqları ilə seçilir. Son zamanlar həyata keçirilən şagird davranışının qiymətləndirilməsi insanlar hər birinin, hətta məktəblilərin ətraf aləmlə, onun hərtərəfli fəaliyyəti, əlaqə inkişafı ilə bağlıdır. Şagird özünüidarəsinin-şagird komitəsinin faydalı şəkildə işlədiyi məktəblərdə güclü kollektivin meydana gəlməsi, şagirdlərin hər birində aktivlik, ciddilik, tədbirlilik kimi müsbət xüsusiyyətlərin tərbiyə olunması aparılan araşdırmalar və praktik iş sayəsində sübut edilmişdir. Şagirdlərin şüurlu intizamını düzgün təşkil etmədən təlim-tərbiyə məsələsində uğur əldə etmək, şagirdlərin daxili aləmini bilmək olmaz. İntizamlılıq şəxsiyyətin əsas xüsusiyyəti, ləyaqəti və əlaməti, əxlaqi keyfiyyəti olmaqla şəxsiyyətin şüurlu işgüzarlığının, rəftarlarının, o cümlədən ümumi qaydaların nə cür yerinə yetirilməsində əks olunmuşdur.

**Problemin elmi yeniliyi.** Hal-hazırda bəzi məktəblərdə şagird özünüidarəsinin yaradılmasında qeyri-ciddilik, elmsizlik özünü biruzə verir. Son zamanlarda özünüidarədə göstərilən birlik həm şagirdlərin təşəbbüskarlığını, həm də kollektivin yeni məlumatlarla təmin olunması qabiliyyətini təkmilləşdirir. Müasir dövrdə məktəblilərdə yaranmış güclü intizam nailiyyət qazanmış təlimdə mühüm yer tutmaqla yanaşı mənəvi və əxlaqi tərbiyədə qarşıya qoyulmuş hədəfdir. Son zamanlar şüurlu intizam tərbiyəsində bir çox tədbirlər tətbiq edilmişdir; bütün müttəfiq respublikalarda "Şagirdlər üçün qaydalar" təsdiq və tətbiq edilmişdir, şagirdlərin davranışlarını qiymətləndirməyin yeni, daha mükəmməl sistemə keçid təmin edilmişdir, şagirdlərin təlimdə müvəffəqiyyətə, nümunəvi davranışa və ictimai-faydalı işdə fəal iştirakına görə təltif edilməsinin dəqiq qaydası müəyyən edilmişdir. Müasir dövrdə valideynlərin, müəllimlərin, həmçinin təcrübəçilərin başlıca vəzifəsi intizamlılıq barəsində bilik və təcrübəsi olmayan şagirdlərə bu keyfiyyətləri aşılamaqdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Bu geniş məqalədən məktəb müəllimləri, tələbələr və magistrantlar geniş surətdə yararlana bilərlər.

## Ədəbiyyat

1. Zeynalov S.M. Şagirdlərin şüurlu intizam tərbiyəsi. Bakı: Maarif, 1980.
2. Həşimov Ə.H. Məktəblilərin şüurlu intizam tərbiyəsi. Bakı 1978.

3. Ağayev Ə. Seçilmiş əsərləri. IV cild, Bakı: Mütərcim, 2015.
4. Kazımov N. Məktəb pedaqogikası. VI nəşr, Bakı, 2011.

**Ш.В.Фаталиева**

**Роль дисциплинарного воспитания в подготовке студентов к активной жизни**
**Резюме**

Дисциплина — это похвала всем за мир и изобилие, или зависимость членов коллектива от правил, выясненных соответствующими уставами, программами и т. д. Когда дело доходит до дисциплины, велико господство детских чувств, вкусов, темперамента, воли и характера. Сознательное дисциплинарное воспитание — это понимание учащимися своего патриотического долга перед Родиной и народом, сознательное отношение к выполнению установленных законов, правил поведения и норм, заданий и задач, а также «Правил для учащихся», всех требований школьного режима, правил социалистического общежития и детских общественных организаций. Это значит понимать, как хорошо читать без дисциплины, овладевать тайнами наук, выполнять свои обязанности без слов и сознательно. Дисциплина — это основной метод нравственного воспитания, который существует в современной ситуации, сознательное отношение к законам и установкам, выработанным народом. Дисциплина была создана через понятие дисциплины. Дисциплинированность студентов или ее антоним отражается в их отношении к труду и общественно полезным делам.

**Sh.V. Fataliyeva**

**The role of disciplinary education in preparing students for active life**
**Summary**

Discipline is the praise of everyone for peace and abundance, or the dependence of collective members on the rules clarified by the relevant statutes, programs, etc. When it comes to discipline, the rule of children’s feelings, tastes, temperament, will and character is great. Conscious discipline education is the understanding by students of their patriotic duties to the Motherland and the people, a conscious attitude to the fulfillment of established laws, rules of conduct and norms, tasks and tasks, as well as the “Rules for Students”, all the requirements of the school regime, the rules of socialist coexistence and children’s social organizations. İt means to understand how to read well without discipline, to master the secrets of sciences, to perform one’s duties without words and consciously. Discipline is the main method of moral education that exists in the current situation, the conscious attitude shown to the laws and attitudes drawn up by the people. Discipline was created through the concept of discipline. Discipline of students or it’s antonym is reflected in their attitude towards work and socially useful works.

**Redaksiyaya daxil olub:** 09.10.2024